Rəşad QARDAŞOV
Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi

ELEKTRON KATALOQUN TƏŞKİLİNDƏ BEYNƏLXALQ YAZI FORMATLARININ ROLU

Respublikamızın sənəd-informasiya təminatının ödənilməsində iqtisadi və texniki amillərin böyük əhəmiyyəti vardır. Müasir dövrdə dünyada baş verən dəyişikliklər bütün sahələri olduğu kimi mədəniyyət sahəsini də əhatələmişdir. Bu yüksək tərəqqi mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitabxana işindən də yan keçməmişdir. Bu inkişafın önündə yeni informasiya texnologiyaları dayanır. Müasir dövrdə dünyada baş verən iqtisadi və sosial dəyişikliklər kitabxanaların fəaliyyətinə güclü təsir göstərərək onların qarşısında yeni fəaliyyət modelinin hazırlanmasını tələb kimi qoymuşdur.

Bu model müasir informasiya texnologiyalarının tətbiqinə və yeni xidmət formalarının yaranmasına əsaslanmışdır. Cəmiyyətin informasiya tələbatının ödənilməsində müstəsna əhəmiyyətə malik olan respublika kitabxanalarında yeni informasiya texnologiyalarının tətbiqi bu sahənin yüksək və dinamik inkşafına səbəb olmuşdur. Yeni informasiya texnologiyalarının müəyyən bir sahəyə kompakt şəkildə,yəni bütün bu sahənin profil və məzmunu nəzərə alınmaqla həyata keçirilməlidir. Bu baxımdan sosial institut adlanan kitabxanalarda yeni informasiya texnologiyalarının kompakt şəkildə həyata keçirilməsi məqsədəuygun hesab olunmuşdur.

Kitabxanaların sosial institut adlandırılması haqqında fikirlər hələ XX əsrin əvvəllərində səslənməyə başlanmışdır. Dünya kitabxanaşünaslığında oldugu kimi bir çox ölkələrdə "Kitabxana işi haqqında "qəbul edilmiş qanunlarda kitabxana sosial institut kimi qəbul edilmişdir (3,4).

Yerli və dünya təcrübəsindən bəhrələnən Azərbaycan kitabxanaşünaslıgı 1999-cu ildə qəbul edilmiş "Kitabxana işi "haqqında qanunla öz işini tənzimləməyə çalışmışdır. Məhz bu qanunda Kitabxananın-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi fəaliyyət göstərən sosial institut kimi xarakterizə olunmuşdur (3,5).

Kitabxananın sosial institut kimi fəaliyyət göstərməsində məlumat-axtarış sistemlərinin düzgün təşkili əhəmiyyətli rol oynayır. Bu məlumat axtarış sistemlərindən danışarkən kitabxanalarda təşkil olunmuş kataloq-kartoteka sisteminə xüsusi toxunmaq lazımdır. Kataloq sistemi kitabxanada müstəsna əhəmiyyətə malikdir. Ümumiyyətlə, kataloq sistemi olmadan kitabxana fondu haqqında ətraflı məlumat əldə etmək olmaz (5,72). Kataloqların məzmunca növlərindən danışarkən ənənəvi kitabxana kataloqlarının (əlifba, predmet, sistemli) xarakteristikasını vermək lazımdır.

Məlum oldugu kimi XX əsrin 60-cı illərindən başlayaraq dünya sənəd axınında yeni sənəd forması-elektron sənəd formalaşmaga başladı.Kitabxanada yığılan sənədlər məqsədyönlü şəkildə,təsnifat cədvəllərinə uyğun olaraq düzülərsə,o zaman kitabxana fondunu yaradır. Bu baxımdan elektron sənədlərin ənənəvi kitabxana kataloqlarında yerləşdirilməsi bəzi çətinliklər yaradırdı. Ona görə də elektron resursların ənənəvi kitabxana kataloqunda deyil,elektron kataloqda əks olunması məqsədəuyğun hesab edilmişdir.

1996-cı il MDB-ölkələri üçün qəbul edilmiş standartda elektron kataloqa belə bir tərif verilmişdir. (7.76.96-8(19-cu bənd))-Elektron kataloq real vaxt rejimində işləyən maşınla oxunan kataloqdur. Respublikamızda elektron kataloqlaşdırma strategiyasına 1999-cu ildən başlansa da bu iş 2002-ci ildən geniş vüsət almışdır. Məlum oldugu kimi elektron kataloqun fəaliyyət göstərməsi üçün iki əsas təminat sisteminin olması vacibdir.

Bunlardan: 1. proqram sistemi təminatı

2.dil təsnifatı təminatı

Proqram təminatı dedikdə elektron kataloqun fəaliyyət göstərməsi üçün işlənib hazırlanan dünya şöhrətli İRRİS-64 (Rusiya Beynəlxalq İnteqral Sistemi) VTLS-Virtual (Veciniya Texniki Universiteti Kitabxanasının sistemi), FOLLET kimi proqramlar nəzərdə tutulur.

Dil təminatı dedikdə elektron kataloqda indeksləşdirmədə istifadə olunan təsnifat cədvəlləri (UOT, M.Dui təsnifatları) nəzərdə tutulur (5,101).

Elektron kataloqunun vacib elementlərindən biri də "biblioqrafik yazı formatlarıdır". Biblioqrafik yazı formatları milli və beynəlxalq əhəmiyyət kəsb edir. Milli yazı formatı hər bir ölkənin elektron kataloqunun daxili mübadilə strukturunu müəyyən edir. Məsələn: ABŞ-ın USMARC, Kanadanın CANMARC, Rusiyanın RUSMARC və s. yazı formatları vardır. Azərbaycanın yazı formatı olan AzMARC işlənib hazırlanmaqdadır. Bu yazı formatı Azərbaycan kitabxanalarında elektron kataloq üçün nəzərdə tutulmuşdur. Bütün bu yazı formatları bir-birinə uyğunluq təşkil edir. Bu uyğunluğu təmin üçün beynəlxalq vasitəçi format olan UNİMARC formatından istifadə olunur.Bu yazı formatı informasiyanın ixracı üçün nəzərdə tutulmuşdur.

Bu məsələni araşdırarkən məlum olur ki, istər keçmiş SSRİ-də, istərsə də ABŞ-da biblioqrafik yazı formatlarının işlənib hazırlanmasına 1970-ci ilin sonlarından başlanmışdır. Bu illərdə SSRİ-də Avtomatlaşdırılmış İnformasiya Mərkəzləri Şəbəkəsi (SAUNTİ) yaradıldığına görə şəbəkədə elektron informasiya mübadiləsini təmin edən vahid formatın işlənməsinə ehtiyac var idi.

O dövrdə belə formatlarda "Maşınqabağı yazı formatları" və bir çox hallarda "Kommunikativ formatlar" deyirdilər. Kommunikativ formatlar biblioqrafik yazıların maqnit lentlərinə yazılaraq SSRİ-nin informasiya mərkəzlərində yayılmaq üçün nəzərdə tutulmuşdur. İstər Konqres Kitabxanasının MARC formatı, istərsə də Kommunikativ format

kitabxanalarda kataloqlaşdırma prosesi üçün hazırlanmışdı. Belə ki, Kommunikativ format əsasında kitabxanalarda elektron kataloq üçün işçi format yaratmaq lazım idi. Bu problem xeyli mürəkkəb olduğundan həll edilmədi. Lakin Kommunikativ formatın strukturunu və semantik elementlərini müəyyən edən QOST 7.14.78 və QOST 7.19.79 nömrəli dövlət standartları işlənib tətbiq edildi (5,9). Bu standartlar əsasında biblioqrafik yazıların maqnit lent yazıları hazırlandı və poçtla mübadilə edilirdi. Kommunikativ formatlar ancaq informasiya mərkəzlərində informasiyanın seçilmiş yayılması sistemlərində xidmət məqsədilə istifadə edilirdi. Beləliklə, Kommunikativformatlar kataloqlaşdırmalarda istifadə edilmədi.

1990-cı illərin əvvəllərində baş verən daxili siyasi və iqtisadi böhran SSRİ-nin dağılmasına və müstəqil respublikaların yaradılmasına səbəb oldu. Bununla əlaqədar olaraq beynəlxalq əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə, beynəlxalq əməkdaşlığa, o cümlədən informasiya mübadiləsinə və kitabxanalararası əlaqələrin inkişafına ehtiyac yaratdı. Kitabxanalar üçün dünya miqyasında qəbul edilmiş UNİMARC və USMARC formatlarına diqqəti artırdı. Bununla əlaqəli olaraq Rusiya Dövlət Kitabxanası və Rusiya Palatası tərəfindən 1992-1994-cü ildə UNİMARC formatı rus dilində tərcümə edilərək nəşr edildi. Azərbaycan kitabxanalarında deyilən istiqamətlərdə işlər 90-cı illərin ikinci yarısından başlanmışdır.

MARC formatının milli versiyaları yaradılmışdır (Məs: USMARC ABŞ kataloqlaşdırma formatı; UKMARC- İngiltərə kataloqlaşdırma formatı; CANMARC- Kanada kataloqlaşdırma formatı; RUSMARC-Rusiya kataloqlaşdırma formatı vəs.). Hazırda dünyanın 97 ölkəsinin belə formatları vardır. Azərbaycan üçün milli kataloqlaşdırma formatı hələlik işlənməmişdir. Müxtəlif formatların uyğunluğunu təmin etmək üçün beynəlxalq format, yəni UNİMARC yaradılmışdır. Milli formatları olan ölkələr üçün UNİMARC əlaqələndirici (vasitəçi) rolunu oynayır və əsasən elektron kataloqlarda informasiyanın ixracında istifadə edilir.

Məlumatın konvertasiya prosesini aradan qaldırmaq məqsədilə biblioqrafik yazı, formatlarının inteqrasiyası XXI əsrin əvvəllərində müşahidə edilən yeni istiqamətdir. Bu istiqamətdə USMARC və CANMARC-ın uyğunlaşdırılması və onların bazası əsasında MARC 21 yaradılmışdır. Burada "21" rəqəmi MARC-ın versiyasını deyil "XXI əsr"i ifadə edir (yəni XXI əsrin MARC-ı). MARC 21 hazırda Avropa ölkələrində, ABŞ və Kanadada daha geniş tətbiq edilmişdir. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında tətbiq edilən VTLS sistemi MARC 21 formatı ilə işlədiyindən onun quruluşunu qısaca izah edək.

Qeyd etməliyik ki, MARC 21 formatı aşağıdakı kimi xüsusi format naborundan ibarətdir:

1) Biblioqrafik məlumatlar formatı-biblioqrafik təsvirləri maşın-laoxunan formada təqdim etmək üçündür. Təsvir obyekti kimi bütün kağız və elektron sənədlər əhatə edilmişdir. Format əsas və bütün növ əlavə təsvirləri, həmçinin sənədin məzmununu açan elementləri özündə birləşdirir.

2) Nüfuzlu (normativ) məlumat formatı–biblioqrafi məlumatlar formatına yardımçı rol oynayır və biblioqrafik yazılara müraciət üçün vacib məlumatları özündə saxlayır. Biblioqrafik məlumatlar üçün əsas və əlavə təsvirlərin başlıqları, yəni şəxsi təşkilat və tədbir adları, ixtisarlaşdırılmış sərlövhələr, predmet terminləri, coğrafi adlar və s. təsvir obyektləridir. Iki tip başlıq müəyyən edilmişdir: müəyyənləşdirilmiş (nüfuzlu) başlıq–onun forması əsas və əlavə yazılar üçün istifadə edilir; müəyyənləşdirilmiş başlıq nüfuzlu faylların və isnadların təşkili üçündür; müəyyənləşdirilməmiş başlıq biblioqrafik yazılarda istifadə edilmir. Formatın mahiyyəti odur ki, obyekt adlarının dəyişməsi ardıcıllığına görə axtarışa imkan verir. Məsələn, eyni bir yazıçı öz yaradıcılığının müxtəlif mərhələlərində müxtəlif təxəllüslərdən istifadə edir. Tarixi şəxsiyyətlər öz fəaliyyətlərinin müxtəlif dövrlərində müxtəlif titullar və vəzifələr ala bilirlər. Eyni bir təşkilat öz adını dəyişib, digər bir təşkilatla birləşə bilər. Beləliklə, format biblioqrafi təsviri birmənalı şəkildə identifikasiya edir;

3) Fondlara dair məlumat formatı-təsvir edilən sənədə dair qeyri-biblioqrafik məlumatları göstərir: yerləşmə yeri, mühafizə şifri, nüsxələrin miqdarı, fiziki vəziyyəti, əldə edilməsi (alınması) metodları, mühafizə müddəti, abonentlə verilmə mümkünlüyü, surətçıxarma qiyməti və s.

4) Təsnifat məlumatları formatı-format sənədə verilən təsnifat indekslərini təqdim etmək üçündür. Buraya indekslərin özləri, başlıqların iyerarxiyası, başlıqlar və indeksləşdirməni açan terminlər daxildir;

5) İctimai informasiya formatı- bu format yenidir və biblioqrafik informasiya ilə əlaqəli deyildir. Onun təsvir obyekti istənilən şəxs, dövlət, sahibkar, ictimai təşkilatlar və onların fəaliyyəti, ictimai məzmun daşıyan tədbirlər və s. ola bilər. Formatda kontakt (əlaqə) informasiyalarını, fəaliyyətin sırasını və xarakterini yazmaq üçün sahə nəzərdə tutulur.(4,151)

MARC formatının meydana gəlməsi ədəbiyyatın işlənilməsində əmək və əqli zəhmət tələb edən proseslərin mərkəzləşdirilməsinə imkan yaratdı. MARC formatından istifadə kitabxana işində ayrı-ayrı əməliyyatların təkrarlanmasını aradan qaldırır və kitabxana ehtiyatlarından daha effektiv istifadə olunmasını təmin edir. Həmçinin MARC formatının tətbiqi kitabxana əməliyyatlarının idarə olunması zamanı kitabxanaçılara mövcud avtomatlaşdırılmış kitabxana sistemlərindən (AKİS) istifadə etmək imkanı verir. Belə ki, hal-hazırda müxtəlif səviyyəli kitabxanalarda istifadə olunan əksər AKİS-lər məhz MARC formatı ilə işləyir və ya onunla işə uyğunlaşdırılıb. MARC formatı müxtəlif

AKİS-lərdən istifadə edən kitabxanalara öz biblioqrafik məlumatlarını bir sistemdən digərinə etibarlı köçürmək imkanı verir.

1965-66-cı illərdə ABŞ-ın Konqres kitabxanasında yeni formatın hazırlanmasına başlanıldı. Bu layihənin məqsədi MARC I kimi tanınan maşınlaoxunan formada kataloq məlumatlarının tərtibi formatını yaratmaqdan ibarət idi. Az sonra bu layihəyə ABŞ, Kanada və Böyük Britaniyanın bir neçə kitabxanası da qoşuldu. 1968-ci ildə MARC II layihəsi üzərində birgə işə başlanıldı. Bu layihənin də ilkin məqsədi vahid format yaratmaq olsa da, fikir ayrılığı nəticəsində üç oxşar, lakin müxtəlif USMARC (ABŞ), CANMARC (Kanada) və UKMARC (Böyük Britaniya) formatları yaradıldı. Bu 3 format içərisində ən geniş yayılanı USMARC-dır. Formatlardan istifadə edən dünya kitabxanaları bu müxtəliflik nəticəsində səmərəli informasiya mübadiləsi edə bilmədilər. Düzdür, formatların bir-birini oxuya bilməsi üçün «tərcümə» proqramı yaradılmışdı. Lakin bu proqramın da mükəmməl olmaması informasiyanın digər formatlara konvertəsi zamanı bəzi biblioqrafik yazıların itməsinə səbəb olurdu.

Artıq 1970-80-ci illərdə bir çox ölkələr MARC formatını qəbul etdilər və MARC-ın 50-dən çox variantından istifadə edilməyə başladı. Belə bir şəraitdə çoxsaylı formatların mövcudluğu informasiya mübadiləsi məqsədilə vasitəçi formatın yaradılması zərurətini meydana çıxartdı. Beləliklə, milli formatların uyğunlaşa bilməsi üçün İFLA-nın rəhbərliyi altında beynəlxalq MARC proqramı və Universal Biblioqrafik Uçot Proqramı çərçivəsində istənilən MARC formatında tərtib olunan biblioqrafik informasiyanın beynəlxalq mübadiləsinin təmini üçün beynəlxalq kommunikativ formatın işlənilməsi qərarı qəbul olundu. «UNIMARC» (Universal MARC Formatı) adlandırılan bu beynəlxalq format 1977-ci ildə nəşr olundu. Kitabın ikinci nəşri 1980-ci ildə oldu, 1983-cü ildə isə «UNIMARC Handbook» (UNIMARC məlumat kitabı) nəşr olundu. 1987-ci ildə «UNIMARC-Manual» (UNIMARC formatının tətbiqi üzrə təlimat) çap olundu. Bu nəşrin çapına qədər bir çox biblioqrafik agentliklər UNIMARC-ı öz lokal formatları kimi istifadə edirdilər. Buna görə də formatın məqsədinə formatdan yeni maşınla oxunan biblioqrafik formatların işlənilməsi üçün model kimi istifadə oluna bilməsi imkanı əlavə edildi. 1994-cü ildə «UNIMARC üzrə Təlimat»ın ikinci nəşri çıxıb. 2000-ci ildə və daha sonralar formata əlavə və dəyişikliklər olunub. 1991-ci ildə avtoritet yazılar üçün «UNIMARC/Authorities» formatı nəşr olundu. Formatın məqsədi adların unifisə edilməsi (şəxs adı, nəsl adı, təşkilat adı, coğrafi ad), müəllifsiz əsərlərin unifisə olunmuş sərlövhəsi, fərdi müəlliflərin unifisə olunmuş ümumiləş-dirilmiş sərlövhəsinin axtarışını asanlaşdırmaq idi. UNIMARC-ın əsas məqsədi milli biblioqrafik agentliklər arasında maşınlaoxunan formada biblioqrafik məlumatların beynəlxalq mübadiləsini təmin etməkdir. Həmçinin format yeni maşınlaoxunan biblioqrafik formatların işlənməsi üçün modeldir. UNIMARC-

ın vəzifəsi maşınla oxunan formada biblioqrafik yazılara aid olan altsahələrin kodlarını, indikatorları, nişanları müəyyənləşdirməkdən, maqnit daşıyıcılarında saxlanılan yazıları və onların məzmunlarını müəyyən edən təyinedicilərin saxlanıldığı formatın təkmilləşdirilməsindən, eləcə də strukturunun müəyyənləşdirilməsindən ibarətdir. Hal-hazırda bir çox biblioqrafik agentliklər UNIMARC formatı ilə yanaşı, USMARC formatından da istifadə edirlər.

UNİMARC formatının quruluşu. UNIMARC formatının mövcud strukturu nişanlar, indikatorlar və altsahələr daxil olmaqla nisbətən stabil sayılır. Formata ehtiyac olduqda əlavə sahələrin, altsahələrin və kodların daxil olunmasına imkan verilir. Bir şərtlə ki, UNIMARC formatının hazırlanması zamanı formatın əsaslandığı beynəlxalq standartların tələbləri mütləq nəzərə alınmalıdır. Formatda dəyişikliklər yalnız sahələrin və altsahələrin ehtiyat hissələrində edilə bilər. UNIMARC formatında bütün biblioqrafik məlumatlar 9 blokda əhatə olunub. 3 rəqəmli nişanla ifadə olunan sahələr isə bu funksional bloklarda cəmlənir. Bloklardakı biblioqrafik məlumatlar (verilənlər) ənənəvi kataloq yazısındakı məlumatlardan fərqli deyil. Formatdakı blokların siyahısı aşağıdakı kimidir:

0_ –İdentifikasiya bloku
1_ –Kodlaşdırılmış informasiya bloku
2_ Təsviri informasiya bloku
3_ –Qeyd bloku
4_ –Təsvir əlaqələri bloku
5_ –Qarşılıqlı əlaqəli sərlövhələr bloku
6_ –Mövzunun müəyyənləşdirilməsi bloku
7_ İntellektual məsuliyyət bloku
8_ –Beynəlxalq istifadə bloku
9_ Milli istifadə bloku

Göründüyü kimi, sahələrdə verilən yazıların məzmunu iki növ məlumatları - kodlaşdırılmış və biblioqrafik məlumatları əks etdirir. Kodlaşdırılmış məlumatlar nəzarət nömrələrini, nəşrin tipini, mətnin əsas dilini və s. ifadə etmək üçün istifadə olunan kodlardır. Məsələn: 010_ _ $a 0-11-884094-0

102_ _$a aze

UNIMARC formatında hər 1 blokun daxilində təyin olunan sahələr müxtəlif növlü, formalı və səviyyəli informasiyanın verilməsini təmin edir. Hər 1 sahə üçrəqəmli nişanla işarələnib, daxil olduğu blokun məzmununa uyğun biblioqrafik informasiyanı əks etdirir. Məsələn, 700-cü sahə 7-ci «İntellektual məsuliyyət» blokuna daxil olub, «İlkin intellektual məsuliyyət kimi şəxs adı»nı əks etdirir. Blokdaxili hər bir sahə öz nişanına uyğun biblioqrafik məlumatın tipini müəyyən edir. Ümumiyyətlə, UNIMARC formatında hər 1 sahə (nişan və adından sonra) verilən sxemə uyğun təsvir olunur:

1.Sahənin müəyyənləşdirilməsi.
2.Sahənin mövcudluğu.
3.İndikatorlar
4.Sahənin məzmunu haqqında qeyd.
5.Qarşılıqlı əlaqəli sahələr.
6.Nümunələr.

Yuxarıda göstərilən bu sxem hər bir sahədə verilir (5,123).

UNIMARC formatında mübadilə məqsədilə tərtib olunan hər bir biblioqrafik yazı Yazı markeri, məlumat kitabçası və dəyişən sahələrdən ibarət olur. Hər bir biblioqrafik yazı 24 simvollu yazı markeri ilə başlayır. Yazı markeri biblioqrafik yazının strukturuna aid məlumatları əks etdirir. Yazı markerindən sonra məlumat kitabçası gəlir. Məlumat kitabçası 12 simvoldan ibarət olub 3 hissəyə ayrılır. I hissə 3 simvoldan ibarət olub hər bir sahənin nişanını göstərir. II hissə 4 simvoldur və məlumat sahəsinin uzunluğunu göstərir, yəni I hissədə verilən sahənin simvollarının (bura indikatorlar, altsahənin identifikatoru, mətn və ya kodlaşdırılmış məlumatlar və sahə ayırıcıları da daxildir) sayını müəyyənləşdirir. III hissə 5 simvoldan ibarət olub, başlanğıc simvolun mövqeyini göstərir. Dəyişən uzunluqlu məlumatlar sahəsi isə məlumat kitabçasından sonra gəlir və biblioqrafik məlumatları əks etdirir.Formatın quruluşundan sonra şərh olunan hissə, yəni yazı markeri, məlumat kitabçası və dəyişən uzunluqlu məlumat sahələrinin bu sxemi mübadilə zamanı istifadəçilər tərəfindən görünməyən hissədir.

Mürəkkəb quruluşa malik olan elektron kataloqun təşkilində müstəsna əhəmiyyət kəsb edən biblioqrafik yazı formatları sənədlərin təsvirində istifadə olunur. O quruluşu etibarilə ənənəvi təsvir qaydalarından fərqlənir,lakin axtarış etibarilə onlara xeyli yaxındır.

ƏDƏBİYYAT

(Azərbaycan dilində)

1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu.//"Azərbaycan qəzeti", 1999, 14 mart.

2. Xələfov A.A., Qurbanov A.İ.: Kitabxanaların kompüterləş-dirilməsinin əsasları: Dərslik.-B.: Bakı Universiteti nəşriyyatı, 2007.-200 s

3. Xələfov A.A. "Kitabxana işi" anlayışının öyrənilməsinə dair// Kitabxanaşünaslıq və biblioqrafiya.-B. :Bakı Universiteti Nəşriyyatı, 2000.-№2. S.3-8

4. Rüstəmov Ə.M. Avtromatlaşdırılmış kitabxana-informasiya sistem-ləri və şəbəkələri: Monoqrafiya/ Ə.M.Rüstəmov, N.A.Mustafayeva- Bakı, 2007. 362 s.

5. Kitabxanaşünaslıq (Kitabxana kataloqları), Bakı, 1996, s.211.

6. Mustafayeva S. "Biblioqrafik təsfirin tərtibi qaydaları". Dərs vəsaiti, Bakı, 2007, s.135

Rus dilində

1. Шрайберг Я.Л. История и состояние использования MARC форматов в практике автоматизации библиотек России и бывшего СССР. 2004. С.72

2. UNIMARC MANUAL: Руководство по применению международного коммуникативного формата UNIMARC.-М., 1992.- с. 20-23

3. Белогонов Г.Г. Автоматизированная обработка научно-технической информации: лингвиститческие аспекты/Г.Г. Белогонов, Б.А.Кузнецов, А.П.Новоселов-М., 1984 (итоги науки и техники, серия «Информатика» /ВИНИТИ, т.8)-стр.315.

Р.А.ГАРДАШОВ

РОЛЬ МЕЖДУНАРОДНЫХ ФОРМАТОВ ПИСАНИЯ В ОБРАЗОВАНИИ ЭЛЕКТРОННОГО КАТАЛОГА

РЕЗЮМЕ

В статье раскрывается значение библиотечно-информационных ресурсов, которая является неотъемлимой частью «Электронного каталога». Также показана характеристика информационно-поисковой системы элетронного каталога (место и значение электронного каталога в информационной системе. Значение и роль поиска, обработки информации в электронном каталоге).

R.A.GARDASHOV

THE ROLE OF İNTERNATİONAL FORMATS OF WRİTİNG İN THE FORMATİON OF ELECTRONIC CATALOG

SUMMARY

The article reveals the importance of library and information resources, which is an integral part of the Electronic Catalog. Also shows the characteristics of information retrieval systems of electronic directory (the place and importance of electronic kataloga in the information system. The significance and role of searching, processing information in an electronic catalog).